# Heydər Əliyev Azərbaycanın Azərbaycan boyda qürurudur

Azərbaycan xalqının böyük oğlu, dünyaşöhrətli siyasətçi, görkəmli dövlət və siyasi xadimi, müstəqilliyin real təminatçısı Ulu Öndər Heydər Əliyevdir. O, bu titulu 1993-cü il iyunun 15-də - Milli Qurtuluş Günündə Azərbaycan xalqını düçar olduğu fəlakətdən xilas etmək üçün atdığı ilk addımdaca qazandı.

Böyük öndərin adı ilə qoşa səslənən Milli Qurtuluş Günündən sonrakı illərdə Azərbaycan həm də beynəlxalq təcriddən xilas edildi. Heydər Əliyev qətiyyətlə Azərbaycan reallıqlarını dünyaya çatdırdı, öz sülh siyasətinin mahiyyəti ilə ən nüfuzlu beynəlxalq təşkilatlar, qüdrətli dövlətlərlə tərəfdaş oldu.

Bu gün hər bir azərbaycanlı həmin günün mahiyyətini yaxşı bilir. Böyük öndər hakimiyyətə gələndə Azərbaycan dövləti dərin böhran içində idi. Erməni təcavüzü azmış kimi ölkənin şimalında "Sadval" separatçı təşkilatı, cənubunda qondarma "Talış-Muğan Respublikası", üstəlik də hakimiyyət uğrunda qarşıdurmalar Azərbaycanı məhv olmaq təhlükəsi ilə üzbəüz qoymuşdu. Hələ Qurtuluş Günündən xeyli əvvəl Heydər Əliyevin hakimiyyətə gəlişini dəstəkləyən Azərbaycan ziyalıları çağırışlar etməyə başlamışdılar. Sonradan bu çağırışlar böyük mitinqlərə çevrildi və 1993-cü il iyunun əvvəllərində Gəncədə baş verən faciəli hadisələr liderin qayıdışından savayı başqa bir yolun olmadığını təsdiqlədi. Həmin il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi və o gün Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu.

Bu sətirləri yazarkən bir jurnalist olaraq Ümummilli Liderin həmin gündən sonra ölkəyə rəhbərlik etdiyi illərin abhavasını xatırlamağa çalışıram. Heydər Əliyevin jurnalistlərlə bağlı fikirlərini yada salıram, onun mətbuat işçilərinə göstərdiyi qayğıkeşliyi gözümün önünə gətirirəm. Azərbaycan mətbuatının azad fikirli, istedadlı, sözün qədrini bilən və bu sözdən Azərbaycan dövləti və dövlətçiliyi üçün istifadə edən jurnalistlərə göstərdiyi diqqət və hörmət hələ neçə-neçə illər yaddan çıxmayacaq. Mən deyərdim ki, jurnalistika, sovet mətbuatı, daha sonra söz və mətbuat azadlığı haqqında Heydər Əliyevin qənaətləri və söylədiyi fikirlər böyük bir tədqiqat mövzusudur. Bu sahədə liderdən öyrənən jurnalistlərin sayı günü bu gün də kifayət qədərdir.

Heç bir vaxt jurnalist olaraq onunla səfərlərdə iştirak etməmiş, müsahibə almamış, keçirdiyi tədbirlərin iştirakçısı olmamışam. Amma bütün bunları müşahidə etmişəm və Ulu Öndərin jurnalistikanın bilicisi olduğunun fərqinə varmış, KİV nümayəndələri ilə işləmək qabiliyyətinə heyran qalmışam. Bu gün əminliklə deyirəm ki, jurnalist kimi Heydər Əliyevin dövründə yanında işləmək hər bir KİV nümayəndəsi üçün böyük bir məsuliyyət olduğu qədər həm də şərəfdir.

Uca Tanrı insanları yaradarkən onların hər birinə özünün xüsusiyyətlərindən az da olsa bəxş edir - bir az böyüklüyündən, bir az səxavətindən, bir az da səbrindən. Dünyaya gələndə bu xüsusiyyətlər hamımızda eyni ölçüdə, eyni biçimdə olur. Zaman keçdikcə, yaş üstünə yaş gəldikcə, bizi əhatə edən mühitlə təmaslarımız genişləndikcə qazandığımız başqa xüsusiyyətlər kimdə isə bu ali keyfiyyətləri zənginləşdirir, kimdə isə azaldır.

Elə insanlar da var sanki bəşəriyyətə xidmət etmək üçün göndəriliblər. Yaşadıqları ömürdə insanların sevgisi, məhəbbəti, inamı ilə əhatə olunur, az qala müqəddəslik zirvəsinə ucalırlar. Həyatın bütün sınaqlarından mərdliklə çıxan, sınaqların ağırlığını çiyinlərində daşıyan, özünü mənəvi yüksəklikdə saxlamağa qadir olan bu insanlar müasirlərinin fövqündə durmağı bacarırlar. Heydər Əliyev məhz belə ucalıqda bərqərar olan, zamanın özünün belə heyrət etdiyi şəxsiyyətdir. Ulu Öndər Azərbaycanın Azərbaycan boyda qürurudur. Adama həmişə elə gəlir ki, onun bir rəhbər, bir şəxsiyyət kimi Azərbaycan xalqının bəxtinə yazılması Allahın lütfüdür.

Həyat yalnız sevincdən deyil, həm də kədərdən ibarətdir. Xoşbəxt olmaq, bəzən də kədərli, qəmli və qüssəli yaşamaq əzəl gündən dünyanın taleyinə yazılmış qanundur. Qovğalı dünyada bir-birinə qənim kəsilən insanların dərdini çəkə-çəkə tarix vərəqlənmiş, vərəqlənə-vərəqlənə də qocalmışdır. Lakin bu qoca tarixdə həmişə cavan qalan liderlər dünən olmuş, bu gün var, sabah da olacaq. Onlar öz şəxsiyyətləri, xalqına və dövlətinə xidmətləri ilə seçilən insanlardır. Sözün həqiqi mənasında belə şəxsiyyətlər - liderlər bir xalqın görkəmli övladı olmaq statusundan çıxaraq bəşəriyyətin qəbul etdiyi simalara çevrilirlər. Onların vurduğu möhür tarixin yaddaşında əbədi qalır. Azərbaycan xalqının XX yüzillikdə yetişdirdiyi və XXI yüzilliyin üçüncü ilində itirdiyi Ulu Öndər Heydər Əliyev də məhz elə şəxsiyyətlərdəndir. O, özünün bilik və bacarığı, kamil şəxsiyyəti, fövqəladə intellekti, xüsusi təşkilatçılıq və idarəetmə qabiliyyəti, dövlətinə və millətinə bağlılığı ilə Ulu Öndər səviyyəsinə yüksəlmişdir.

Ulu Öndərin xalqa bəxş etdiyi düşüncə azadlığını xalqın zəkalı, savadlı şəxsiyyətləri, eləcə də sadə insanları hələ bundan sonra da milli sərvəti kimi qoruyub saxlayacaqlar. Ulu Öndər bu millətin əbədi sərvəti, əbədi xəzinəsi, əbədi qazancıdır. Bunu bir daha onun millətə, dövlətə 30 ildən artıq xidməti ilə Azərbaycanı dünyada ucaltması təsdiq edir. 15 İyun Qurtuluş Gününün mahiyyətində vətənpərvərlik və azərbaycançılıq dayanır. Ulu Öndər azərbaycançılıq ideologiyasının və siyasətinin bayraqdarı olaraq, yüksək mənəviyyatı, mədəniyyəti ilə ali intellektual səviyyəyə malik bir siyasətçi, mahir diplomat və dövlət xadimi idi.

Milli Qurtuluş Günü böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik gündür. Vətənini, xalqını sevənlər, çətin günlərin ağrılarını, dəhşətlərini yaşayanlar üçün 15 İyun əsl Qurtuluş Günüdür. Həmin günü, daha doğrusu, müstəqilliyimizin bu mərhələsini Vətənin vətənpərvər oğlu Heydər Əiyev sonralar belə xatırlayacaq: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycanın kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyununda hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

Heydər Əliyev haqqında, fəaliyyəti və şəxsiyyəti ilə bağlı yüzlərlə kitab, elmi əsər, publisistik məqalələr yazılıb, araşdırmalar aparılıb. Müasirləri hələ liderin sağlığında Heydər Əlirza oğlunu dərk etməyə, onun böyük obrazını geniş ictimaiyyətə təqdim etməyə çalışmışlar. "Heydər Əliyev bütün türk dünyasının düşünən şəxsiyyətdir", "Heydər Əliyev müasir Azərbaycanın memarıdır", "Heydər Əliyev Qafqazların lideridir", "Heydər Əliyev modern Azərbaycanın öndəridir", "Heydər Əliyev dünya siyasətinin patriarxıdır", "Heydər Əliyev nadir şəxsiyyətdir", "Heydər Əliyev canlı əfsanədir" və s. bu kimi layiqli deyimlərlə qiymətləndirilmiş Ulu Öndər haqqında kiçik bir məqalədə nəsə yeni bir fikir söyləmək çətindir. Olsa-olsa Milli Qurtuluş Günündə o böyük şəxsiyyət haqqında jurnalist düşüncələrini bölüşmək mümkündür ki, ona da yalnız cəhd etdik.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 15 iyun.- S.20.